# QƏRBİ AZƏRBAYCANA DAİR İRSİN ELMİ KİTABXANALARDA RƏQƏMSALLAŞDIRILMASI: ÇAĞIRIŞLAR VƏ PERSPEKTİVLƏR

***Şəbnəm Ayaz qızı Rüstəmova***

*AMEA Mərkəzi Elmi Kitabxananın elmi katibi*
*Yasamal rayonu, Hüseyn Cavid pros. 129*
*shabnamrustamova23@gmail.com*
*ORCID İD: 0009-0001-4521-8666*

***Açar sözlər:*** *rəqəmsallaşma, Qərbi Azərbaycan, elektron kitabxana, elmi irs, kitabxana*
***Ключевые слова:*** *оцифровка, Западный Азербайджан, электронная библиотека, научное наследие, библиотека*
***Keywords:*** *digitization, Western Azerbaijan, digital library, scientific heritage, library*

**Xülasə:** Qərbi Azərbaycan əsrlərdi Azərbaycan xalqının yaşadığı sivilizasiya məkanlarından biridir. XIX əsrdən etibarən ermənilər aborigen azərbaycanlılara qarşı təcavüzkar siyasət həyata keçirmişdir. Hazırda bu tarixi həqiqətləri özündə əks etdirən yüzlərlə kitab, monoqrafiya, elmi məqalələr var. Bu elmi irsin sistemli şəkildə toplanması və rəqəmsallaşdırılması milli yaddaşın gələcək nəsillərə ötürülməsi baxımından vacibdir. AMEA-nın Mərkəzi Elmi Kitabxanası son illər bu istiqamətdə xeyli işlər görmüşdür. Ölkə səviyyəsində mövcud istiqamətdə sənəd axınının institusional dispersliyini aradan qaldırmaq üçün sistemləşdirmə və rəqəmsallaşdırılmanı mərkəzləşdirmək vacibdir.

**Резюме:** Западный Азербайджан — одно из мест цивилизации, где на протяжении веков проживал азербайджанский народ. Начиная с XIX века армяне проводили агрессивную политику против коренного азербайджанского населения. В настоящее время существуют сотни книг, монографий и научных статей, отражающих эти исторические истины. Систематический сбор и оцифровка этого научного наследия важны с точки зрения передачи национальной памяти будущим поколениям. Центральная научная библиотека НАНА за последние годы проделала большую работу в этом направлении. Важно централизовать систематизацию и оцифровку, чтобы исключить институциональную разбросанность документооборота в текущем направлении на уровне страны.

**Summary:** Western Azerbaijan is one of the places of civilization where the Azerbaijani people have lived for centuries. Beginning in the 19th century, armenians have been pursuing an aggressive policy against the indigenous Azerbaijani population. Currently, there are hundreds of books, monographs and scientific articles reflecting these historical truths. Systematic collection and digitalization of this scientific heritage is important in terms of transmitting national memory to future generations. The Central Scientific Library of ANAS has done a lot of work in this direction in recent years. It is important to centralize systematization and digitalization in order to eliminate institutional scattering of document flow in the current direction at the country level.

Qərbi Azərbaycan azərbaycanlıların tarixi sivilizasiya məkanlarından biri olmuşdur. Əsrlər boyu Azərbaycan xalqı bu ərazilərdə mədəniyyətini, adət-ənənələrini yaşatmış, zəngin maddi-mənəvi irs yaratmışdır. Lakin XIX əsrdən etibarən bu torpaqlar mərhələlərlə yad ünsürlərə – ermənilərə verilmiş, aborigen azərbaycanlılar təcavüzkar siyasətə məruz qalaraq doğma yurd-yuvalarından deportasiya edilmişdir. İşğalla yetinməyən ermənilər azərbaycanlıların mədəniyyət abidələrinə qarşı da vandalizm həyata keçirmişlər. Bu proseslərə respublika səviyyəsində ilk olaraq Ümummilli lider Heydər Əliyev diqqət yönəltmiş, Qərbi Azərbaycanla bağlı tarixi həqiqətlərin öyrənilməsi məqsədilə mühüm konsepsiya formalaşdırmışdır: "*Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər indi Er-*

*mənistan yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daim ardıcıl surətdə sübut etsin"* [1, s. 148].

Ulu öndərin elmi ictimaiyyətə tarixi ədalətin bərpası baxımından bu mühüm çağırışı sonrakı illərdə Qərbi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan tarixçilərinin qarşısında əsas vəzifəyə çevrilmişdir. Nəticədə Ermənistan Respublikasının Azərbaycan torpaqları üzərində formalaşdığını sübut edən yüzlərlə kitab, monoqrafiya, elmi məqalələr yazılmışdır. Əlbəttə, bu əsərlər arxiv sənədləri, xəritələr və tarixi qaynaqlara söykənir. "*Bu qaynaqlar içərisində şərti olaraq İrəvan dəftərləri adlandırdığımız – 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri", 1727-ci ildə tərtib edilmiş "Rəvan livasının müfəssəl təhrir dəftəri" və 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri" – adlı tarixi sənədlər Qərbi Azərbaycan tarixinin müxtəlif problemlərinin – inzibati-ərazi bölgüsü, siyasi, iqtisadi və demoqrafik vəziyyəti, çoxsaylı onomastik materialların araşdırılması baxımdan müstəsna əhəmiyyətə malikdir*" [4, s. 279]. Bütün bu elmi irsin sistemli şəkildə toplanması və rəqəmsallaşdırılması milli yaddaşın gələcək nəsillərə ötürülməsi, beynəlxalq elmi diskursda Azərbaycanın haqlı mövqeyinin möhkəmləndirilməsi üçün elmi bazanın formalaşması baxımından mühüm əhəmiyyət daşıyır.

Məlum olduğu kimi, 2023-cü ildə Qərbi Azərbaycan İcması tərəfindən "İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya – Qayıdış Konsepsiyası" [2] elan olunmuşdur. Deportasiya edilmiş həmyerlilərimizin doğma torpaqlarına qayıtmaq hüququnu təspit edən bu kompleks sənəd həm də Qərbi Azərbaycana dair irsin qorunmasının vacibliyini göstərir. Bu irsin sistemləşdirilməsi, rəqəmsallaşdırılması istiqamətində AMEA Mərkəzi Elmi Kitabxana tərəfindən ciddi addımlar atılmışdır. 2023-cü ildə kitabxana tərəfindən "Qərbi Azərbaycan: biblioqrafik göstərici" tərtib olunaraq nəşr edilmişdir. AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli qeyd edir ki, "*Bu biblioqrafik göstərici Qərbi Azərbaycana dair aparılmış tədqiqatları ümumiləşdirməklə bərabər, həm də bundan sonrakı araşdırmaların istiqamətləndirilməsi üçün əhəmiyyətli bələdçidir*" [3, s.9]. Bununla yanaşı, MEK "By Metis" və "Zeutschel" avadanlıqları ilə skan edilmiş Qərbi Azərbaycana dair yüzlərlə elmi ədəbiyyat, arxiv sənədləri, jurnalların elektron versiyalarını ABBYY FineReader proqramının köməkliyi ilə konvertləşdirərək elektron kitabxanasının bazasını zənginləşdirmişdir. Bu elmi əsərlərdən E.Qarayevin "Qərbi Azərbaycan XIX yüzilliyin ikinci yarısı-XX yüzilliyin əvvəllərində", Ə.Ələkbərlinin "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz", "Qərbi Azərbaycan folkloru" çoxcildliyi, Ə.Əliyevin "Azərbaycan dilinin meğri şivələri" və b. nümunə göstərmək olar. 2024-cü ildə MEK tərəfindən "Qərbi Azərbaycan" adlı virtual sərgi təşkil olunmuş, müxtəlif dillərdə regionun demoqrafiyası, coğrafi ərazisi, mədəniyyəti, tarixi, mühüm abidələri, ictimai-siyasi xadimləri, tanınmış alimləri haqqında onlarla akademik nəşrlər, bədii, tədris və soraq-məlumat ədəbiyyatları nümayiş etdirilmişdir.

Qərbi Azərbaycan elmi irsinin rəqəmsallaşdırılması sahəsində uğurlar əldə edilsə də, perspektivdə daha böyük addımlar da atmaq olar. Belə ki, Qərbi Azərbaycanla bağlı müxtəlif əlyazmalar, arxiv sənədləri, kitab və jurnallar bu gün müxtəlif universitet və elmi tədqiqat müəssisələrinin kitabxanalarında, arxivlərdə, şəxsi kolleksiyalardadır. Ölkə səviyyəsində mövcud istiqamətdə sənəd axınının institusional dispersliyini aradan qaldırmaq üçün sistemləşdirmə və rəqəmsallaşdırılmanı mərkəzləşdirmək, vahid verilənlər bazasını yaratmaq vacibdir. Bu istiqamətdə milli strategiya hazırlanaraq müvafiq qurumlar tərəfindən dəstəkləndiyi halda daha böyük uğurlar əldə etmək olar. Şübhəsiz, gələcəkdə rəqəmsallaşdırılmış Qərbi Azərbaycana dair elmi irsin DOAJ, Europeana, OpenAIRE və s. kimi beynəlxalq kitabxana şəbəkələrinə inteqrasiyası da mümkün olsa, Azərbaycanın bu istiqamətdə elmi mövqeyinin dünya miqyasında möhkəmləndirilməsinə zəmin yaradacaq.

**Ədəbiyyat**

1. *Əliyev, H.Ə*. Müstəqillik əbədidir [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – C. 19. 2006 – 528 s.

2. İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya – Qayıdış Konsepsiyası // Azərbaycan. – 2023, 27 yanvar. – s. 9.

3. Qərbi Azərbaycan: biblioqrafik göstərici /elmi məsl. İ.Həbibbəyli; tərt. X.İsmayılova.– Bakı: Elm, 2023. – 728 s.

4. *Rüstəmova, Ş.A*. Qərbi Azərbaycan tarixinin öyrənilməsində "Osmanlı təhrir dəftərləri"nin əhəmiyyəti // – Bakı: Tarix və onun problemləri, – 2025. №1, – s. 279-286.